# Xatirə gecəsi

*Respublika prezidentinin «Səməd Vurğunun 100 illik yubileyinin keçirilməsi haqqında» 6 fevral 2006-cı il tarixli sərəncamına uyğun olaraq Qax Rayon Mədəniyyət və Turizm şöbəsində geniş tədbirlər planı tərtib edilmiş və həyata keçirilmişdir. Müəssisələrdə şairin həyat və yaradıcılığını əks etdirən guşələr, sərgilər, ədəbi-bədii və xatirə gecələri, görüşlər, müsabiqələr təşkil olunmuşdur.*

Kitabxanalarda tövsiyə ədəbiyyat siyahıları, biblioqrafik icmallar, kartotekalar tutulmuşdur.

Fəxrlə qeyd etmək istəyirəm ki, rayonumuzda Səməd Vurğunun həyat və yaradıcılığını əks etdirən muzey fəaliyyət göstərir. Muzeyi, dəfələrlə Səməd Vurğunla görüşmüş, onun ailəsinin yaxın dostu mərhum həmyerlimiz Məmməd Aşurov yaratmışdır. Muzeydə şairin həyat və yaradıcılığının müxtəlif dövrlərini əks etdirən 1500-dən artıq eksponat toplanmışdır. Sadə müəllimlik peşəsindən əldə etdiyi məvaciblə şəxsi evində təşkil etdiyi muzeyin fəaliyyətini onun qızı Reyhan xanım davam etdirir. Hər gün muzeyə onlarla Vurğunsevər baş çəkir.

Şəhər mədəniyyət evi və kitabxanası tərəfindən muzeydə xatirə gecəsi keçirilmişdir. Tədbirdə rayon ictimaiyyətinin müxtəlif təbəqələrinin nümayəndələri iştirak etmişlər. Rayon mədəniyyət evinin «Arzu» Xalq Kollektivinin üzvləri şairin sözlərinə yazılmış mahnıları ifa etmiş, bədii qiraət üzrə maraq klubunun fəalları isə şerlərini söyləmişlər. Rayonda yaradılmış «Kürmük nəğmələri» ədəbi birliyinin üzvləri şairin yaradıcılığından söhbət açmış, ona həsr etdikləri şerlərini dilə gətirmişlər. Rayon mədəniyyət evində fəaliyyət göstərən İ.Dağıstanlı adına teatrın həvəskar aktyorları tərəfindən hazırlanmış «Vaqif» dramından səhnələr göstərilmişdir. Səslənən şerlər, oxunan mahnılar S.Vurğun sənətinin ölməzliyini, dahiliyini bir daha göstərmişdir.

*Gecədə Məmməd müəllimin qardaşı Nadir Aşurov çıxış edərək, tədbir təşkilatçılarına minnətdarlığını bildirmiş, şairin Aşurovlar ailəsi ilə bağlı xatirələrini və ona həsr etdiyi şerini söyləmişdir. Məmməd müəllimin qızı Reyhan xanım tədbirin təşkili üçün Mədəniyyət və Turizm şöbəsinin rəhbərliyinə, şəhər mədəniyyət evi və kitabxananın işçilərinə dərin minnətdarlığını bildirmişdir..*

*D.Əzizova,*